*(Əvvəli ötən sayımızda)*

# "İntihar"ı oxu və düşün

*(Yazıçı-publisist Qafar Cəfərlinin "İntihar" hekayəsi barədə düşüncələr)*

Qazinin vətən məhəbbəti tam-bütövdür, bölünməzdir - bütündür. Bu sevgidə yox bölücülük, ayrıseçkilik, ögeylik-yadlıq. Bu sevgi rüşvətxora,, talançıya, əliəyriyə nifrətə köklənməyib, yəni Qazi Vətən torpaqlarını xilasda heç düşünməyib ki, bu Əli, Vəli, Həsən, Hüseyn... rüşvətxordur, oğrudur, mən onları yox, yalnız doğru-dürüstləri xilas etməliyəm. Qazi bütün Azərbaycanın xilaskarıdır, bütün Azərbaycanın bahadırıdır. Qazi vətən torpaqlarının xilas əməliyyatında bir yol belə şikayətlənməyib, bir yol belə fərarilik təşəbbüsündə bulunmayıb. O gileylənməyib nə soyuqdan, nə aclıqdan. Gileylənməyib nə güllə çatışmazlığından, nə silah- sursat azlığından. Gileylənməyib nə komandirlərin etinasızlığından, nə də çiyindaşlarının etibarsızlığından. Ölüm saçan, qan püskürən döyüşlərdə gileylənməyən Qazi arxa cəbhədə gileylənir, hiddətlənir yoxsulluğundan, dilənçiliyindən, qazilərə, şəhid ailələrinə baxımsızlıqdan, məmur azğınlığından, pensiya və maaşların azlığından, dərd - ağrıların gün-gün çoxalmasından, əmək haqların elə yerində saymasından. Belə paralellərdə ikiləşir oxucunun nəzərində - ön cəbhədə döyüşən, vuruşan-savaşan xilaskar Qazi, arxa cəbhədə qulkölə, fağır-mağmun və xilaskar axtaran Qazi. Bu situasiyada belə bir haqlı sual rahat buraxmır oxucunu: necə olur ki, yağılarla ölüm-dirimlərdə Qazi olur cəngavər, lakin arxa cəbhədə - məmurlarla qovğada olur ağciyər? Daha bir haqlı sual da oxucu beynini narahat edir: bir xalq, bir millət olarq biz öz xilaskarımızı süründürməçi - bürokrat məmurlardan niyə qoruya bilmirik?! Qazi bizim Vətən haqqımızı qoruduğu kimi biz Qazinin sosial hüququnu niyə qoruya bilmirik?!

Məğlubiyyəti, ölüm-itimi özünə yaraşdırmayan Qazi nəhayətdə xilaskar seçir özünə İntiharı - böyük-böyük ərləri-ərənləri öz soyuq ağuşuna çəkək o kaftarı. Evlərindən tut ağacınadək kiçik bir məsafəni qət edərkən Qazi, görəsən, nələr düşünür, hansı duyğular keçir başından?! Kimləri məhəbbətlə, kimləri nifrətlə yad edib, görəsən?! Bəlkə, həyatda başsız buraxdığı talesiz tifillərini, onların qeyri-müəyyən gələcəyini düşünür?! Bəlkə də, ölümə-xilaskarına asta-asta, qəmi-qəmli belə pıçıldayır: "Ey əzrayıl nəfəsli, cəhənnəm qoxulu ölüm! Yalvarıram qopar məni bu ölkənin ermənibaz məmurlarından, məmləkətin xəbis-iblislərindən. Tez qopar məni ölkənin gərəksizlərindən. Tələs, tələs qopar məni vicdanını var-dövlətə satanlardan, vəzifədən milyon əllə tutanlardan, boğazacan günahlara batanlardan. Qopar məni, qoy bir daha görməyim mən çörək dərdi çəkənləri. Qazilərin, veteranların ocağında qırmızı turp



**Qafar Cəfərli**

əkənləri. Qoy görməyim hansı dərdə mübtəladır mənim qazi qardaşlarım, mənim qazi abilərim. Yalvarıram sənə, Ölüm, bu dünyadan qopar məni, o dünya - haqq-ədalət dünyasına apar məni"

Qazi ağır düşüncələr qoynunda çatır tut ağacına. Çıxır kətil üstünə. İlgəyi keçirir boğazına. Təpiklə kətili itələyir kənara. Asılı qalır tut ağacından. Uşağının "Ata!" - hayqırtıslna açır gözlərini bir anlıq. "Oğul!" deyibən hay verir balasına. Tükənir, bitir ağlı-qaralı bir Qazi ömrü. Kəsilir, susur bir Qazi səsi, bir Qazi nəfəsi.

"İntihar"ın son epizodu nə qədər yanğılı-göynərtilidirsə, nə qədər tükürpərdicidirsə, hekayənin son cümləsi də ("Çəlimsiz bir oğlan uşağı isə üz-gözünü isladan, dodaqlarında duz tamı verən qəfil yağışa məhəl qoymadan arıq əlləri ilə tut ağacını yumruqlayırdı") - bir o qədər optimistdir, həyat, yaşamaq, mübarizə yüklü - ovqatlıdır. Cümlədəki "yağış" təmizlik və bakirəliyin simvoludur, "çəlimsiz uşaq" gələcəyin - sabahın atributudur, "yumruqlayırdı" mübarizənin bitməyib davam edəcəyinə işarədir, "tut ağacı" uşağın nəzərində atasının qatili anlamında - mənziləsindədir - bu çəlimsiz uşaq böyüyəcək, ağlı kəsəndən sonra atasının əsl qatillərinin kim olduğunu biləcək, onlara və onların törtöküntülərinə qisasçı - intiqamçı ruhunda köklənəcək. Yəni bu uşaq maskalanmış süründürməçi, mənfəətpərəst, qanı ilan qanıtək soyuq məmurların qabağında sınmayacaq, onların hüzurunda daha mübariz, daha qətiyyətli, daha döyüşkən mövqe sərgiləyəcək, imkan verməz ki, kimsə haqqına girsin, kimsə hüquq-azadlıqlarına qəsd eləsin.

Yazıçı Qafar Cəfərlinin "İntihar" hekayəsinin əlyazma nüsxəsini rayonun əksər ziyalıları, xüsusən dil-ədəbiyyat müəllimləri oxuyublar. Hamının yekdil rəyi belədir: hekayədə uydurma - fantaziya - qondarma elementlər yoxdur, müşahidə etdiyimiz bir cəmiyyət faktı - intihar bədii mətn səviyyəsində epikləşdirilib, həm də uğurlu epikləşdirilib. Qazinin döyüş şücaətləri qürurvericidir - ruhlandırıcıdır və bu əsl vətənpərvərlik nümunəsi, qəhrəmanlıq etalonudur, örnək-görkdür yeniyetmə və gənclərimizə. Hekayədə tənqid - ifşa hədəfi seçilən bəzi üzdəniraq məmurlardan da hökumət idarələri xali deyil və bu, realdır. Vəzifə borclarına laqeyd - biganə məmurlar ifşa-tənqid, qınanmalı - tənbeh olunmalı ya vəzifədən uzaqlaşdırılmalı, ya da bir təhlükəli sosial fiqur kimi cinayətə cəlb edilməlidir. Çünki məmur cəzasızlığı gələcək faciələrin və qanunsuzluqların mənbəyi - başlanğıcdır. Məmur təkcə məmur yox, vətəndaşlara, xüsusən qazi və şəhid ailələrə, həm də "qoruyucu mələk" missiyaçısı olmalıdır, necə ki Qazinin komandiri bu missiyanın ən öncülü və ən fəal daşıyıcısı idi.

Əgər Vətən müharibəsini, əldə etdiyimiz böyük Zəfəri əks etdirən əsərlərdən ibarət bir nəsr antologiyası təşkil olunsa, heç şübhəsiz, istetdadlı qələm sahibi Qafar Cəfərlinin "İntihar"ı ən çox oxunan, ən çox sevilən hekayələrdən biri, bəlkə də, birincisi olacaq.

**Musa XANBABAZADƏ,**
**filoloq - ədəbiyyatşünas**



**Azad Azərbaycan.- 2023- cü il.- 15 iyun.- S. 7.**